*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *p-ISSN: 2410-5600*
*Əlyazmalar yanmır / Manuscripts don't burn № 1, 2025, səh. 157-161*

https://doi.org/10.59849/2410-5600.2025.1.157

UOT: 81.

**Püstəxanım Babayeva**
*Bakı Slavyan Universiteti*
*Bakı ş., Süleyman Rüstəm küç. 25*
*e-mail: pbabayeva@gmail.com*

# BƏDİİ ƏDƏBİYYATDAKI ONOMASTİK VAHİDLƏRİN SİNTAKTİK ÖZƏLLİKLƏRİ

**Xülasə**

Sözlərin müxtəlif dillərdə yaranması da fərqli yollarla baş verir. Azərbaycan dilində sözlər leksik, semantik, morfoloji və sintaktik yolla yaranır. Bəzən xüsusi adların məzmununda çoxkomponentlik özünü göstərə bilir. Dilçilikdə onomastik vahidlərin analitik (sintaktik) yolla söz yaranmasına çox rast gəlinir. Burada iki və daha artıq dil vahidinin iştirakı nəzərdə tutulur. Bu cür onomastik vahidlər bədii ədəbiyyatda da yüksək poetik xüsusiyyətlərə malikdir. Məqalədə bu adların sintaktik xüsusiyyətlərinin təhlilinə yer verilmişdir.

***Açar sözlər**: poetik onomastika, bədii ədəbiyyatda adlandırma, sintaksis, dilin tarixinin onomastik vahidlərdə əksi*

## Giriş

*Hər bir xalqın dilində mövcud olan şəxs adları həmin xalqın yalnız sosial və mədəni varlığını deyil, həm də tarixi inkişaf mərhələlərini özündə ehtiva edən mühüm bir onomastik vahiddir. Bu adlar xalqın mənəvi dünyasının, düşüncə tərzinin, dini inanclarının və ictimai münasibətlərinin aynası rolunu oynayır. Xalqın tarixi qədər onun adlar sistemi də qədim və zəngindir. Tarixin müxtəlif mərhələlərində formalaşmış şəxs adları toplumun keçdiyi yolun, qarşılaşdığı hadisələrin və inkişaf dinamikasının göstəricisi kimi çıxış edir [6].*

*İlk adlar hələ ibtidai icma quruluşu dövründə, qəbilə şəraitində meydana gəlmişdir. Hər qəbilənin özünəməxsus adları olmuş, bu adlar əsasən fiziki xüsusiyyətlər, təbiət hadisələri, heyvan və bitki adları, yaxud qəhrəmanlıq göstəriciləri ilə bağlı olmuşdur. Adlar, ilk növbədə, fərdlərin bir-birindən ayırd edilməsini təmin etmək məqsədi daşısa da, zamanla daha mürəkkəb funksiyalar daşımağa başlamışdır.*

İnsan cəmiyyətinin inkişafının yeni mərhələsində tayfa birləşmələrinin xalq halına gəlməsi dövründə cəmiyyət daxilində ünsiyyətin və qarşılıqlı münasibətlərin genişlənməsi xüsusi şəxs adlarına olan ehtiyacı artırmışdır. Artıq bu mərhələdə adlar təkcə ayırd etmə funksiyası daşımır, həm də ailə mənsubiyyətini, ictimai statusu, mədəni və dini dəyərləri əks etdirən bir vasitəyə çevrilir. Beləliklə, şəxs adları tədricən formalaşır, sabitləşir və nəhayət, cəmiyyət daxilində bir ənənəyə çevrilir.

Azərbaycanın qədim yazılı abidələri, xüsusilə "Kitabi-Dədə Qorqud" dastanları, onomastik materiallarla zəngindir. Bu əsərdəki boylarda qeyd olunan kişi və qadın adları o dövrün adqoyma meyarları, sosial münasibətləri və dil xüsusiyyətləri haqqında əhəmiyyətli məlumatlar verir. Dədə Qorqud dastanlarındakı Bamsı Beyrək, Qazan xan, Burla xatun, Selcan xatun kimi adlar həm qəhrəmanlıq, həm də mənəvi dəyərlərlə bağlıdır. Bu adlar vasitəsilə qədim türklərin dünya görüşünü, ailə münasibətlərini, gender rollarını və estetik anlayışlarını öyrənmək mümkündür.

Adlar sadəcə bir fərqləndirmə vasitəsi deyil, həm də tarix, mədəniyyət, ideologiya və psixoloji dəyərlərin daşıyıcısıdır. Hər bir şəxs adı özündə müəyyən dövrün dil xüsusiyyətlərini, xalqın dünyagörüşünü və sosial münasibətlər sistemini ehtiva edir. Onomastik vahidlərin öyrənilməsi yalnız dilçilik üçün deyil, tarix, etnoqrafiya, sosiologiya və mədəniyyətşünaslıq üçün də böyük əhəmiyyət daşıyır. Bu səbəbdən şəxs adlarının və digər onomastik kateqoriyaların tədqiqi, onların semantik və funksional xüsusiyyətlərinin araşdırılması elmi və mədəni baxımdan olduqca mühüm sahə olaraq qalır.

Onomastika dilçilik elminin adları öyrənən sahəsi olub, müxtəlif semantik və funksional kateqoriyalara bölünür. Onomastik vahidlər bir-biri ilə sıx bağlı olsa da, hər birinin öz funksional və struktur xüsusiyyətləri vardır.

Adların meydana gəlməsində tarixi, ictimai və mədəni şəraitin rolu danılmazdır. Cəmiyyətin müxtəlif inkişaf mərhələləri, dini inanclar, ailə və tayfa strukturu, eləcə də sosial münasibətlər şəxs adlarının formalaşmasına birbaşa təsir göstərmişdir. Belə adların çoxunda hər dövrün izləri aydın şəkildə özünü göstərir. Şəxs adları vasitəsilə xalqın məişət tərzi, dünyagörüşü, arzuları, məqsədləri, hətta estetik zövqü və fantaziyası da öz əksini tapır.

Müasir Azərbaycan dili bu baxımdan zəngin və çoxşaxəli antroponimik leksikaya malikdir. Bu leksik sahə insanlarla bağlı adları əhatə edir və öz daxilində iki əsas qrupa bölünür:

Əsas adlar insanın şəxsiyyətini tanıtdırmaq üçün birbaşa işlənən və rəsmi sənədlərdə qeyd olunan adlardır. Bu qrupa aşağıdakı kateqoriyalar daxildir: şəxs adı – fərdin əsas adı; adətən doğum zamanı qoyulur; ata adı (ata adı formasında patronimik) – şəxsin atasının adı ilə ifadə olunan hissə; soyad – ailə mənsubiyyətini bildirən və nəsil əlaqəsini göstərən ad.

Köməkçi adlar əsas adlarla birlikdə işlənə bilən, lakin şəxsiyyətin tanıdılmasında və fərdiləşdirilməsində əlavə informasiya daşıyan mühüm onomastik vahidlərdir. Bu adlar fərdin yalnız kim olduğunu deyil, eyni zamanda cəmiyyət içində necə qəbul edildiyini, hansı xüsusiyyətləri ilə yadda qaldığını və hansı sahədə tanındığını da göstərir. Əsas adlar fərdin hüquqi və rəsmi identifikasiyasını təmin edərkən, köməkçi adlar daha çox emosional, mədəni və ictimai məna qatır. Bu baxımdan köməkçi adlar fərdin sosial və mənəvi portretinin tamamlayıcı hissəsidir.

Ləqəblər xalq arasında geniş yayılmış və tarixən şəxsiyyətin xarakterik xüsusiyyətlərini, cəmiyyətin ona münasibətini əks etdirən qeyri-rəsmi adlardır. Adətən fiziki görünüşə (Qara, Uzun), davranışa (Tənbəl, Qorxmaz), peşəyə (Dəmirçi, Nalbənd), ya da fərdin yaşadığı hadisələrə əsaslanaraq yaranır.

Təxəllüslər əsasən ədəbi və bədii fəaliyyətlə məşğul olan şəxslərin istifadə etdiyi yaradıcı adlardır. Təxəllüs insanın sənətkar kimliyini ifadə edir və adətən onun yaradıcılıq üslubunu, estetik dünyagörüşünü, ideya baxışlarını simvollaşdırır. Təxəllüs şəxsə cəmiyyətdə fərqli tanınma imkanı yaradır, bəzən bu adlar rəsmi adlardan daha məşhur olur. Təxəllüs həm də şəxsiyyətin zaman və məkan baxımından ədəbi-mədəni kontekstdə tanınmasını təmin edir.

Titullar fərdin sosial statusunu, ictimai mövqeyini, ixtisas və rütbəsini göstərən ad və ya ifadələrdir. Tarixən titullar idarəçilik, hərbi və dini strukturlarda geniş yayılmışdır və bu adlar vasitəsilə şəxsin cəmiyyətdəki mövqeyi müəyyən edilir. Bəzi hallarda bu titullar soyad formasında sabitləşərək antroponimik sistemə daxil olur.

Əsas və köməkçi adlar bir-birini tamamlayaraq şəxsin tam onomastik kimliyini yaradır. Məsələn, "Əli Məmməd oğlu Əliyev, professor" şəklində bir ad strukturu həm rəsmi, həm də sosial və peşə kimliyini əks etdirir. Bu cür ad strukturları xüsusilə elmi, siyasi və sənət mühitində işləkdir və şəxs haqqında daha geniş informasiya təqdim edir.

Azərbaycan antroponimik sistemi, yəni şəxs adlarının, soyadların, ata adlarının və köməkçi adların ümumi strukturu təkcə insanları tanıtdırmaq funksiyası ilə məhdudlaşmır. Bu sistem eyni zamanda xalqın tarixi yaddaşının, ictimai quruluşunun və mədəni kimliyinin daşıyıcısı kimi çıxış edir. Adlar bir millətin dil tarixində, əfsanə və rəvayətlərində, dini inanclarında, mədəni dəyərlərində və ictimai

münasibətlərində zaman-zaman formalaşaraq xalqın kimliyinə hopmuşdur. Buna görə də antroponimik sistemin öyrənilməsi həm dilçilik baxımından, həm də humanitar elmlərin digər sahələri üçün olduqca qiymətli və çoxşaxəli bir tədqiqat sahəsidir.

Hər bir ad özlüyündə müəyyən bir tarixi epoxanın izini daşıyır. Tarixi şəxsiyyətlərin adlarının nəsildən-nəslə keçməsi, döyüşlərdə və siyasi hadisələrdə ad çıxarmış insanların adlarının sonradan geniş yayılması bunun bariz sübutudur. Məsələn, xalq arasında "Babək", "Koroğlu", "Şah İsmayıl" kimi adların dövrlər boyu yaşaması həmin şəxsiyyətlərin tarixi-mədəni nüfuzunun antroponimik sistemdə əks olunmasıdır. Belə adlar yalnız şəxsi tanıtmaq üçün deyil, həm də xalqın tarixi kimliyinin qorunması üçün bir vasitədir.

Adlar xalqın ictimai təşkilatlanması, ailə münasibətləri, patriarxal struktur, sinfi və dini statuslar kimi sosial məsələlərini də əks etdirir. Məsələn, "Mirzə", "Bəy", "Xanım", "Seyid" kimi titullar tarixən sosial təbəqələşməni göstərən göstəricilər olmuşdur. Bu baxımdan antroponimlər ictimai strukturların dəyişməsi ilə paralel olaraq transformasiyaya uğrayır və hər mərhələnin spesifik xüsusiyyətlərini özündə yaşadır.

Antroponimik sistem eyni zamanda xalqın dini, mifoloji, folklor, bədii-estetik dünyagörüşünü də əks etdirir. Məsələn, adlarda İslam dininin təsiri ilə ərəb və fars mənşəli sözlərin geniş yayılması (Məhəmməd, Əli, Fətmə, Zəhra və s.) bu təsirin mədəni müstəvidə necə kök saldığını göstərir. Digər tərəfdən, "Oğuz", "Turxan", "Bəhram", "Aybəniz" kimi adlar isə türk mifologiyasının, qəhrəmanlıq və gözəllik idealının davamıdır.

Adlar dilin tərkib hissəsi kimi fonetik, leksik, semantik və morfoloji baxımdan da araşdırma obyektidir. Onların quruluşu, mənşəyi, semantik yükləri və sintaktik rolu dilin inkişaf dinamikasını izləməyə imkan verir. Eyni zamanda adlar etnoqrafik tədqiqatlar üçün də faydalıdır, çünki adqoyma ənənələri vasitəsilə toy, doğum, adət-ənənə, inanclar, nəslin qorunması kimi mövzular üzə çıxarılır.

Müasir dövrdə antroponimlərin funksiyası daha da genişlənmiş, adlar şəxsi brend, ictimai imic, sosial mediada identifikasiya vasitəsinə çevrilmişdir. Bu səbəbdən adqoyma məsələsində estetik, psixoloji və sosial faktorlar daha çox nəzərə alınmağa başlanmışdır. Bəzi valideynlər uşaqlarına ad qoyarkən onun beynəlxalq səviyyədə işləkliyini, tələffüz rahatlığını və müasir səslənişini də əsas meyar kimi götürürlər. Bu da adqoyma sistemində qloballaşmanın təsirini göstərir.

Müasir Azərbaycan ad sistemində əsas ad kateqoriyasına əsl adlar, ata adı və soyadı daxildir. Elə buna görə də əsl ad, ata və soyadları əsas və rəsmi adlar hesab edilir. Bu antroponimlər quruluşca sadə, düzəltmə və mürəkkəb ola bilir. Mürəkkəb antroponimlər sintaktik yolla yaranır və bədii mətndə xüsusi mövqeyə malik olur. Sintaktik yolla yaranan mürəkkəb adların özlərinin də yaranma formaları iki cürdür: birincisi sintaktik üsuldur ki, burada yalnız iki sadə söz bir-birinə birləşir, ikincisi sintaktik-morfoloji üsuldur ki, burada həm sadə, həm də düzəltmə söz bir-birinə birləşərək mürəkkəb ad əmələ gətirir. Məsələn, Pəri+cahan, Qız+yetər. Bu adlardan birincisi sintaktik, ikincisi sintaktik-morfoloji üsulla yaranmışdır [5, s.178].

Köməkçi ad kateqoriyalarına ləqəb, təxəllüs və titullar daxildir. Köməkçi adlar yuxarıda adları çəkilən rəsmi sənədlərdə qeyd olunmur. Şəxs ömrünün müxtəlif dövrlərində fəaliyyəti, xarici görünüşü, xarakteri, başqalarının ona münasibəti və s. ilə bağlı olaraq köməkçi adlar ala və ya götürə bilər. Köməkçi adlar bilavasitə şəxsin özü ilə əlaqədar olduğu üçün qədim türk adlarının spesifik xüsusiyyətlərini də özündə əks etdirir [1, s.12].

Azərbaycan diliçiliyində söz yaradıcılığının bir neçə üsulu vardır: leksik, semantik, morfoloji və sintaktik. Onomastik leksikanın bütövlükdə derivatoloji təhlili göstərir ki, əslində, dilçilikdə başlıca olaraq, iki mühüm söz yaratma üsulu mövcuddur:

1) leksik-semantik,

2) qrammatik [2, s.38].

İkinci qrupa daxil olan qrammatik söz yaratmaya morfoloji və sintaktik söz yaradıcılığı aiddir.

Bədii ədəbiyyatda bir çox toponim və ya oykonimlərdən istifadə edilir ki, bu adlar əsərin məzmun və ideyasına uyğun verilir. Bu adlar ədəbiyyatın simvolikasını özündə əks etdirir. Bu simvolik üsullardan hər yazıçı ustalıqla istifadə edə bilmir. Bu üsuldan istifadə etmək özü poetik ustalıq tələb edir.

Məsələn, dahi Cəlil Məmmədquluzadənin həm satirik, həm tənqidi, həm də ictimai-siyasi məzmunlu bir çox hekayə və felyetonlarında qəribə və maraqlı kənd adları ilə qarşılaşırıq: "İtqapan", "Danabaş", "Zurnalı", "Təzəkli", "Qapazlı" və s. Bu adların mənasına nəzər salmazdan əvvəl onların quruluşuna nəzər salaq. Burada həm morfoloji (Zurnalı, Təzəkli, Qapazlı) üsulla yaranan toponimlərə, həm də sintaktik yolla (İtqapan, Danabaş) yaranan toponimlərə rast gəlmək olur. Müəllif bu adları seçərkən yazdığı əsərdə yer alan qəhrəmanları da, əsərinin poetik gücünü də, ideyalarını da nəzərə alır. "Mən sadə bir kənddən bəhs etməyəcəyəm" deyə oxucuya səslənir. Bu kənd "Ölülər"lə doludur. Bəzən düşüncələri ilə ölən, bəzən mənfur siyasətin qurbanı olan "Ölülər"lə. "Danabaş" kəndi öz idarəçilik sistemi ilə bu adı almağa layiqdir. "Dana+baş" sözlərinin birləşməsindən əmələ gələn bu adın çatdırmaq istədiyi mesaj, yəqin ki, oxucuya asanlıqla aydın olur. Xalqımızın qədim adətlərindən biridir, hər hansı kənd, mahal onu idarə edənin adı ilə adlandırılırdı. "Danabaş" kəndi də onu idarə edənin (Xudayarın) xarakteri ilə bağlı olaraq adlandırılır. Yeri gəlmişkən, "Xudayar" özü də sintaktik üsulla əmələ gələn mürəkkəb addır: "Xuda+yar". Lakin bu adın mənası sahibinin xarakterinə tamamilə tərsdir. Bəlkə də, buna görədir ki, müəllif onun öz adının əvəzində "Danabaş" adından istifadə etməyi üstün tutmuşdur [3].

Yaxud da, "İtqapan" kəndi. Cahil, avam, sadə və ürəyiaçıq "Novruzəlilərin" yaşadığı kənd. Buradakı "İt" hissəciyi əslində kənd üsuli-idarəsindəki bir çox əzazil şəxsləri ümumiləşdirir. Başda xan, sonra da Novruzəlinin şikayətə gəldiyi katta bu adın altında ümumiləşdirilə bilər. Ümumiyyətlə, Mirzə Cəlil əsərin poetik gücünü artırmaq üçün çox zaman belə mürəkkəb onomastik vahidlərdən istifadə etməyə üstünlük vermişdir. Bəlkə də, bu adlar vasitəsilə təsvir etdiyi qanunsuzluqları, avamlığı ikiqat təsvir etməyə cəhd göstərmişdir. "Qurbanəli", "Novruzəli", "Məhəmmədhəsən" və s. kimi adlar bu yolla yaranmışdır. Buradakı şəxs adlarından görünüdüyü kimi, müəllif ərəb-fars dillərindən keçən adlara daha çox üstünlük vermişdir. Bunula da bu şəxslərin İslam adətlərinə, müsəlmançılığa bağlı olduqlarını göstərməyə çalışır.

Bu xüsusi adların sintaktik quruluşunu linqvistik baxımdan təhlil etdikdə, burada sintaktik üsulla söz yaradıcılığından istifadə edildiyinin şahidi oluruq. "Kök+kök" modeli əsasında formalaşan adların hər iki tərəfi müstəqil mənalı sözlərdir. Antroponimlərin hissələri isə (Novruz + Əli, Məhəmməd + Həsən, Qurban + Əli) ayrılıqda bir antroponimi ifadə edir. Lakin burada birləşərək mürəkkəb sintaktik vahid əmələ gətirmişdir. Göründüyü kimi, burada heç bir morfoloji əlamətdən söhbət gedə bilməz və tərəflərin hamısı isimdir.

Bəzən elə mürəkkəb adlarla qarşılaşırıq ki, burada sözün bir tərəfi isim, bir tərəfi isə feil olur. Məsələn, Səməd Vurğunun şeirində yer alan "Göyəzən" dağının adı "Göy"+"əzən" sözlərinin birləşməsindən əmələ gəlmişdir ki, buradakı "göy" sözü omonim sözdür, həm isim kimi (səma anlamında), həm də sifət kimi (rəng anlamında) başa düşülə bilər. Lakin ikinci hissəcik olan "əzən" feili ilə birləşdikdə görürük ki, buradakı "göy" isimdir. Beləliklə, mürəkkəb sintaktik vahid "isim+feil" birləşməsindən yaranmışdır [4].

## Nəticə

*Ümumilikdə, Azərbaycan dilində mürəkkəb onomastik vahidlər çoxluq təşkil edir. Bu onomastik vahidlərin tərəfləri, əsasən, ümumi isimlərlə ifadə edilir. Lakin bəzən bədii ədəbiyyatda mürəkkəb antroponimlərə rast gəlirik ki, bu adlar da sadə antroponimlərin sintaktik üsulla birləşməsi nəticəsində əmələ gəlir. Mürəkkəb onomastik vahidləri əmələ gətirən tərəflər, adətən, isim olsa da, sifət və feillər də bu prosesdə fəal iştirak edir.*

**Ədəbiyyat siyahısı:**

1. Tanrıverdi Ə.V. "Kitabi-Dədə Qorqud" da şəxs adları Bakı: Elm, 1999. 158 s.
2. Paşayev A. Azərbaycan şəxs adlarının izahlı lüğəti. Bakı: Mars-Print, 2003. 192 s.
3. Məmmədquluzadə C. Seçilmiş əsərləri. I cild, Bakı, 2004, 664 s.
4. Səməd Vurğun Seçilmiş əsərləri. I cild, Bakı, 2005, 264 s.
5. Hüseynova H. Bədii əsərlərdə onomastik vahidlərin rolu. Bakı, 2017, ADPU nəşriyyatı, 190 s.
6. Məmmədova L.M. Fərman Kərimzadənin əsərlərində onomastik vahidlər və onların linqvistik xüsusiyyətləri. Filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın Avtoreferatı. Bakı, 2024, 32 s.

**Pustekhanım Babayeva**

**The syntactic features of onomastic units in artistic literature**

***Summary***

Words are formed in different ways in different languages. Words in the Azerbaijani language are formed by lexical, semantic, morphological and syntactic means. Sometimes the content of special names can be multicomponent. Analytical (syntactic) word formation of onomastic units is common in linguistics. The participation of two or more language units is considered here. Such onomastic units also have high poetic properties in fiction. The article analyzes the syntactic features of these names.

***Key words**: poetic onomastics, naming in fiction, syntax, reflection of the history of the language in onomastic units.*

*Filologiya elmləri doktoru, professor **İkram Qasımov***
*tərəfindən çapa tövsiyə olunmuşdur.*